Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 24.12.2012-ci il tarixli 1217050000004800 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 45

***“Vergi orqanlarına xidmətə qəbul üçün müraciətin və sənədlərin qəbulu” elektron xidməti üzrə inzibati reqlament***

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Vergi orqanlarına xidmətə qəbul üçün müraciətin və sənədlərin qəbulu*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu elektron xidmət vasitəsilə vətəndaşlar onlayn qaydada vergi orqanlarına işə qəbulla bağlı müsabiqədə iştirak üçün qeydiyyat imkanı əldə edirlər.*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası***: Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş, 1 nömrəli əlavə - “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin Qaydalara 1 nömrəli əlavə, eləcə də "Elektron xidmət növlərinin Siyahısı"nın 7.56-cı bəndi.*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyi.*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Bu xidmət yalnız Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən həyata keçirilir.*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Yoxdur.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Elektron xidmətin icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Vətəndaşlar Azərbaycan Respublikasının Vergilər Nazirliyinə gəlmədən müsabiqədə iştirak üçün qeydiyyatdan keçə bilər.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv.*

**2.2. Elektron xidmət üzrə ödəniş:** *Ödənişsiz.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Bu xidmət yalnız Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulub.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyinin rəsmi internet səhifəsi (http://vroom.e-taxes.gov.az/tqdk) http://www.e-gov.az, http://www.taxes.gov.az.*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

*- Azərbaycan Respublikasının Vergilər Nazirliyinin rəsmi internet səhifəsi (http://www.taxes.gov.az);*

*- http://www.e-gov.az*

*- Azərbaycan Respublikasının Vergilər Nazirliyinin İnsan resursları idarəsi, Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195)*

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

*Bu elektron xidmətin göstərilməsi üçün hər hansı bir sənədin təqdim edilməsi tələb olunmur.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.2. İnteraktiv elektron xidmətlər üçün sorğu:**

**3.2.1. Sorğunun formalaşdırılması:**

*İnteraktiv elektron xidmətdən istifadə etmək üçün Azərbaycan Respublikasının Vergilər Nazirliyinin rəsmi internet səhifəsində hər hansı bir qeydiyyatdan keçməyə ehtiyac yoxdur. Azərbaycan Respublikasının hər bir vətəndaşı sərbəst şəkildə xidmətdən istifadə üçün sorğu göndərə bilər.*

**3.2.2. Sorğunun qəbulu:**

*"Vergi orqanlarına xidmətə qəbul üçün müraciətin və sənədlərin qəbulu" elektron xidməti real-vaxt rejimində həyata keçirilir və nəzərdə tutulmuş sorğu forması doldurulduqdan sonra sorğu avtomatik olaraq qəbul edilir.*

*Xidmətin göstərilməsi prosesi tamamilə avtomatlaşdırılmış şəkildə həyata keçirilir. Bu barədə müraciət edən istifadəçi saytda qoyulmuş "Vergi orqanlarına işə qəbulla bağlı müraciət forması" linkindən daxil olaraq şəxsiyyət vəsiqəsinin pin kodunu və nömrəsini daxil etməklə sistemə daxil olub tələb olunan məlumatları daxil etməklə qeydiyyatdan keçir.*

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.3.1. Sorğunun yerinə yetirilməsindən imtina halları (tam və qismən avtomatlaşdırılmış xidmətlərin uyğun xüsusiyyətləri nəzərə alınmaqla):** *Vətəndaşın göndərdiyi məlumatlar yoxlanılır və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin tələblərinə uyğun gəlmədikdə səbəb göstərilməklə sorğunun qəbul edilmədiyi barədə bildiriş göndərilir*

**3.3.2. Sorğunun qəbulu:** *Sorğu elektron formada qəbul edilir və müsabiqəyə buraxılmaq üçün təsdiq olunmuş müraciətlərə sıra ardıcıllığı TQDK tərəfindən müəyyən olunmuş iş nömrəsi verilir.*

**3.4. Sorğunun icrası:**

**3.4.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:** *Məlumatlar avtomatlaşdırılmış qaydada qəbul olunur və işə qəbulla bağlı yaradılmış işçi qrup tərəfindən yoxlanılaraq avtomatlaşdırılmış qaydada cavablandırılır.*

*Elektron xidmətin göstərilməsinə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin İnsan resursları idarəsi və İnformasiya texnologiyaları və Proqram təminatı şöbəsi məsuliyyət daşıyır.*

**3.4.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və(və ya) maksimal yerinə yetirilmə müddəti:** *Elektron qeydiyyat ərizələri üç gün ərzində işçi qrup tərəfindən yoxlanılır və cavablandırılır.*

**3.4.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** *Yoxdur.*

**3.4.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** *Elektron xidmətin göstərilməsi zamanı sistemdə sorğunun cavablandırılması real vaxt rejimdə üç gün ərzində aparılır və sorğuya baxılmasının nəticələrinə dair müraciət edənə bildiriş göndərilir.*

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.5.1. Nəzarət forması:** *Elektron xidmət servisinin daim işlək vəziyyətdə olması Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən gündəlik nəzarətdə saxlanılır.*

**3.5.2. Nəzarət qaydası:** *Bu xidmətin yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının Vergilər Nazirliyinin İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi tərəfindən həyata keçirilir və bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə İnsan resursları idarəsinə müraciət olunur.*

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər.*

**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** *Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.*

**3.6.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** *İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.*

**3.6.3. Şikayətin baxılma müddəti:** *Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunun 78-ci maddəsinə əsasən, 1 ay müddətinə baxılır.*

*Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.*

*** * ***